# "Baltik mirvarisi"

## Bələdçimiz Riqada "Ştirlisin küçəsi"nə gedib çıxıb



**"Səhər qar yağırdı, indi hava açılıb. Amma yenə havada şaxta var..." Riqa Hava Limanında təyyarədən enərkən ilk eşitdiyim bu sözlər oldu. Transferimizi həyata keçirən İlona adlı gənc qız Riqanın dəyişkən havasından danışdı: "Qəfildən günəşli havanın ortasında qar və ya güclü yağış yağa bilir. Hava proqnozlarına da o qədər bel bağlamaq olmaz. Burada yaşayanlar havaya bələd olduğundan ona uyğun hərəkət edirlər".**



Riqa aeroportu şəhərdən 15 dəqiqəlik məsafədə yerləşir. Paytaxt özü də balaca olduğundan burada lazım gələndə məsafələri piyada qət etmək insanlar üçün o qədər də çətinlik yaratmır. Əsas nəqliyyat vasitəsi isə hələ sovet dövründən qoruyub-saxladıqları tramvaydır. Paytaxtın 700 minlik əhalisini rahatlıqla təmin edən ictimai nəqliyyatın digər növlərində xidmət də o qədər nizamla qurulub ki, heç bir tıxaca rast gəlmək mümkün deyil.

Latviya 2 il əvvəl Avropa Birliyinə daxil olub. Baltikyanı dövlətlərdən Estoniya Birliyə daxil olmaqda onu qabaqlasa da, Latviya regionda iqtisadi baxımdan daha güclü dövlət sayılır. Məsələn, bu gün Riqa dəniz limanı Baltik dənizində liderliyə malikdir.

Riqa Latviyanın inzibati və mədəni paytaxtıdır. Alman cəngavərləri tərəfindən əsası qoyulan Riqa Avropanın ən gözəl şəhərlərindən biri olmaqla özünün çox sayda tarixi abidələrinə minnətdar olaraq YUNESKO-nun siyahısına düşüb. Riqa tipik alman şəhərlərini xatırladır. Alman tacirlərinin də sevimli məkanı onların bütün izlərini qoruyub saxlayıb.

Riqa, həmçinin Avropanın ən gözəl şəhəri seçilib. ABŞ-ın nəhəng nəşrlərindən sayılan "USA Today" tərtib etdiyi reytinqdə Avropanın ən gözəl şəhərləri arasında birinciliyi Latviya paytaxtına verib. Amerika nəşri "Oxucuların seçimi" nominasiyasında Avropanın ən gözəl şəhəri kimi Riqaya səs verməyi təklif edib. "Avropanın mədəniyyət paytaxtı indi layiq olduğu diqqəti qazanmağa başlayır" -deyə nəşr Riqanı məhz bu ifadə ilə səciyyələndirib və şəhəri "Baltik mirvarisi" adlandırıb. "USA Today" Latviya paytaxtının modern üslubu və YUNESKO-nun dünyanın mədəni irsi siyahısında olan Köhnə şəhərinin xüsusilə böyük maraq kəsb etdiyini qeyd edib. Bu gün eleqant şəhər dünya əhəmiyyətli müxtəlif tədbirlərə də ev sahibliyi edir.

### "ŞTİRLİSİN KÜÇƏSİ"

Köhnə Riqa şəhərin tarixi və coğrafi mərkəzi sayılır. Hələlik Riqaya turistlərin az gəldiyi deyilir. Ancaq şəhərin qədim hissəsində əllərində xəritə gəzən çoxlu əcnəbilərə rast gəlmək olur. Hamısı qədim kilsələrə, məbədlərə, sinaqoqlara və arxitektor quruluşu ilə seçilən evlərə heyranlıqla baxır. "Şəhərdəki arxitektor binaların hamısı abidələr siyahısına daxildir. Qədim şəhər isə bütünlüklə YUNESKO siyahısındadır. Bu abidələr yalnız təşkilatın razılığı ilə restovrasiya edilir. Dauqava çayı Riqanı müasir və qədim hissələrə bölür. Burada iki dünya müharibəsinə şahidlik edən orta əsrlərə məxsus unikal arxitektor abidələr yer alıb. Həmçinin şəhərin dar küçələri ilə gəzdikcə, xüsusilə köhnə şəhərdə keçmişin aurasını hiss etmək mümkündür. Burada unikal yaşayış binaları və qədim kilsələr, 13-cü əsrdə tikilən, qotik və borokko üslublu müqəddəs Pyotr kilsəsi, Roma katolik kilsəsi kardilanının iqamətgahı yerləşən müqəddəs Ekaba kafedral məbədi, müqəddəs Yura məbədi, Köhnə Riqa Sinaqoqu, Riqa qalasının "Üç qardaş" yaşayış kompleksi və s. tikililərə baxmaq üçün köhnə şəhər gecələr də gündüzlər kimi turistlərlə canlanır. Yayda şəhərin küçə və meydanları kafelər və pivə barları ilə dolu olur.

Qədim şəhərdə "Baharın 17 anı" filminin bəzi kadrlarının çəkildiyi küçələri axtarmaq da maraqlı oldu. Yerli sakinlər, daha doğrusu, yaşlılardan soraqladığım küçələri o qədər də asanlıqla tapmadım. Hətta, bir qadının "Mən o küçə haqqında eşitmişəm. Görməyi də arzulayıram. Çox təəssüf ki, bu şəhərdə yaşayırıq, ancaq həmin küçədən xəbərsizik" - deməsi məndə bir qədər təəccüb doğurdu. Nəhayət, iki ahıl kişinin hətta, filmdə həmin küçənin "Çvetoçnaya" adlanması və ünvanı haqda dəqiqliklə verdiyi məlumatlar məni aparıb məşhur serialın bəzi kadrlarının çəkildiyi dar, qəmbər daşlar döşənən qədim küçəyə çıxardı...

Köhnə şəhərdə müxtəlif ölkələrin milli mətbəxləri öz yeməklərini təklif edir. Burada şəhərin ritmi fərqlidir - teatr, kino, konsert salonlarının, kazino, pab və restoranların öz həvəskarları var. Həmçinin əllərindən siqaret və şərab şüşəsi düşməyən, müxtəlif cins itlər gəzdirən gənc oğlan və qızların da öz dünyası. Latışlar ünsiyyətcil olsalar da, çox laqeyd görünürlər. Adama elə gəlir ki, dünyada baş verən proseslərin - müharibələrin, terror hadisələrinin, miqrant problemlərinin onlara heç bir aidiyyəti yoxdur. Ayrıca bir adanın sakinləri kimi yaşayırlar.

Şəhərlə yaxından tanış olduqca hiss edirsən ki, ölkədə qiymətlərin bahalığı, müəyyən sosial problemlər əhalinin üzündəki sakitliyi poza bilməyib. Xüsusən yaşlı insanların hərəkətli olması diqqəti cəlb edir. Elə küçələrdə ən çox hərəkətdə olan da 70-80 yaşlı qocalardır. Cavanların çoxu iş və təhsil dalıyca daha çox İngiltərə və İrlandiyaya üz tutub. İlona deyir ki, yaxşı həyat arzusu latışların da istəyidir: "Onlar getdikləri ölkələrdən bəzən geri qayıdırlar, bəzən də dönmək istəmirlər. Ancaq Avropa Birliyinə üzv olandan sonra ölkəmiz daha çox inkişaf etməyə başlayıb". Hazırda Latviyada trikotaj və ərzaq sənayesi, xüsusən süd məhsullarının istehsalı sahələri daha çox inkişaf edib: "Sovet dövründən sonra sənayenin müxtəlif sahələri inkişaf etsə də, bəzi sahələr ümumiyyətlə bağlanıb. Özəl sektor daha çox inkişaf edir. Əmək haqları 600-1000 avro arası dəyişir. Amma insanlar sosial vəziyyətlərindən o qədər də narazı deyillər. Çünki problemlər hər yerdə var"- deyə İlona dillənir: "Riqada azərbaycanlılar da çoxdur. Onlar daha çox ticarətlə məşğul olur, restoranlar şəbəkəsində çalışırlar. Azərbaycanlılar yerli əhali ilə yaxşı ünsiyyətdədirlər". Latviya Avropanın "velosiped" ölkələrindən biri sayılır. Velosiped idarə etmək üçünsə sürücülük vəsiqəsi və dövlət qeydiyyatı tələb olunur. Riqada böyük velosiped istehsal edən müəssisə də fəaliyyət göstərir.



Şəhərin küçələrində satış mərkəzlərində və dükanlarda taxta, keramika və kəhrəbadan müxtəlif əl işləri və bəzək əşyalarına rast gəlmək olur. Bu da latışların əsas dolanışıq vasitələrindən biridir.

Küçələrdə yan-yana məşhur Melnais Balzams içkiləri, Laima fabrikinin dadlı şokoladları ilə diqqət çəkən dükanlar, Skandinaviya ölkələrindən gətirilən müxtəlif mallar satan mağazalar turistləri cəlb edir.



Mədəniyyət sferasında isə Riqada milli opera məşhurdur. Burda hər il Riqa beynəlxalq opera və balet festivalı keçirilir. Şəhərin konsert zallarında mütəmadi klassik və xor musiqiləri təqdim olunur. Yayda isə konsertlər parklarda və qədim Riqanın küçələrində keçirilir. Küçə musiqiçilərinin ifa etdikləri musiqilər isə demək olar ki, hər tində eşidilir.

Latviyanın milli mətbəxində balıq və qızardılmış kartof yeməkləri çox məşhurdur. İtalyan pizzalarını dadmaqdan da heç kəs imtina etmir. Restoranlardan ətrafa yayılan musiqi səsləri və gənclərin hay-küyü Riqa gecələrinin sükutunu demək olar ki səhərədək pozur...

### İTƏN "DALĞA"

Latviyaya gələn turistlər mütləq ölkənin ən böyük şəhəri olan Yurmalaya üz tuturlar. Riqa körfəzinin incisi sayılan Yurmalaya səhər saat 00.00-dan axşam 24.00-a kimi bir avro ödəməklə hər saatdan bir qatarla gedib-gəlmək olur. Yerlilər deyirlər ki, qış aylarında və yazda bu şəhər nə qədər sakitdirsə, yayda bir o qədər sükutu pozulur. Bu şəhər gerçəkdən musiqi aurasına köklənib. Yurmala festivallar şəhəridir. Ayrı-ayrı qəsəbələrdən ibarət olan Yurmalanın hər küçəsində konsertlərin, musiqili gecələrinin afişalarına rast gəlmək olur. İyun ayında keçiriləcək musiqi festivalı, həmçinin Layma Vaykulenin konserti ilə bağlı afişalar indidən küçələri bəzəyir. "Yurmala şəhər muzeyi"ni gəzməklə dənizsahili şəhərin bütün abı-havasına bələd olmaq olur. Həmçinin Raymond Paulsun və Layma Vaykulenin bu şəhərdəki villalarını gələn turistlərə az qala muzey kimi göstərirlər. Çünki turizm şəhərini məşhurlaşdıran təkcə Riqa körfəzinin mavi sularının yuduğu qızılı qumlu sahillərdə yerləşməsi, turistlərin sevimli istirahət məkanı olması deyil, həmçinin festivallar şəhəri olmasıdır. Yamyaşıl meşələrlə əhatələnən şəhər demək olar ki, balaca taxta evlərdən və imkanlı şəxslərin villalarından ibarətdir. Burada 400-dən artıq arxitektor ev var və onların hamısı taxtadandır. Körfəz sahilində asılan göy bayraqlar isə suyun təmiz və təhlükəsiz olmasından xəbər verir.

Şəhəri musiqi məkanı kimi tanıdan "Yeni dalğa" musiqi festivalının keçirildiyi "Dzintari" konsert zalını uşaqdan-böyüyə qədər hamı tanıyır. Hərçənd son illər bu məşhur festival müxtəlif siyasi səbəblərdən Yurmaladan uzaqlaşıb. Bu da şəhərə gələn rus turistlərinin axınının qarşısını alıb. Restoranlar və otellər də bu üzdən müştərilərini itiriblər. Yerli hakimiyyət ümidini almanların və isveçlilərin gəlişinə bağlayıb.

Hələlik isə "Yeni dalğa"nın effekti Yurmalada qorunub saxlanır. Təşkilatçılar festivalın geri dönəcəyinə və əvvəlki şöhrətini qaytaracağına ümid edirlər...

**Təranə Məhərrəmova**
**Riqa- Yurmala**